# Azərbaycan atıcıları İslam Oyunlarının qalibidir

Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında yarışan  Azərbaycan komandası növbəti qızıl medalı stend atıcılığı növündə qazanıb. Gənclər və İdman Nazirliyinin saytında xəbər verilir ki, stend atıcılığı üzrə skit qarışıq komanda yarışında Fuad Qurbanov və Nurlana Cəfərova cütlüyü V İslam Həmrəyliyi Oyunlarının qalibi olub.

Qeyd edək ki, daha əvvəl Nurlana Cəfərova skit reytinq yarışlarında İslamiadanın gümüş medalına layiq görülüb.




Azərbaycan.- 2022.-17 avqust.- S.7.